# MÖCÜZƏYƏ AÇILAN QAPI

Xuanxe və Xanşuy (söhbət eradan əvvəlki VIII-VI əsrlərdən gedir) çayları hövzəsində yaşayan xalqlarda fəlsəfi şüurun yaranması - Çin mədəniyyətinin binə bağlaması ilə eyni vaxta düşür. Oxşar proses Hindistanda, Qədim Yunanıstanda, Yaxın Şərqdə də baş alıb getməkdəydi. Bu - həyati idrakın, fəlsəfi şüurun inkişafında da öz təsdiqini tapırdı.

İnsan bir fərd olaraq təbiət və cəmiyyətdə öz yerini axtarır, necə deyərlər, papağını qənşərinə qoyub bu dünyaya nə üçün gəldiyini və nə səbəbdən gedəcəyini fikirləşməyə imkan tapırdı... Bu cəhətdən qədim Çin heç kəslə müqayisə oluna bilməz, bu ölkədə fəlsəfə daha irəliyə getmişdi. Cəmiyyətin və ölkənin idarə üsulları, müxtəlif sosyal təbəqələr, vilayətlər, ağalıqlar arasındakı münasibətlər Qədim Çin filosoflarının diqqət mərkəzindəydi...



Bu minvalla Qədim Çin xalq əsatirlərinə güvənən, nəinki o dövrün, sonrakı minillərin belə ən möhtəşəm filosofunu - Konfutsini yetişdirdi... Gündəlik dolanışığında, dövlət idarəçiliyində, elmdə, təhsildə, dosta-düşmənə, keçmişə-gələcəyə münasibətində, öz yüksəlişi ilə dünyada heyrət doğuracaq yeganə bir ölkə varsa, - o da Çindir...

Belə bir fikir söylənir ki, qədim Çində nə qədər məktəb vardısa, elə o sayda da fəlsəfi təlim mövcudmuş... Ancaq, bu təlimlərin hər biririn adında da, özündə də Dao anılır. Görəsən DAO-nun arxasında konkret bir adammı dayanıb-durur? Ya DAO - Tanrıdımı, Xeyir-Bərəkətdimi, Yerdimi-Göydümü? Biri deyir, Dao kimdisə, - Konfutsidən əvvəl yaşayıb, biri deyir sonra... Kimisə o fikirdədir ki, DAO - Konfutsinin müəllimi olub, bəzilərisə DAO-nu Konfutsinin tələbəsi sayır... Bir sözlə, DAO-nun



kimliyi-nəçiliyi barədə gümanlar indinin özünəcən səngimək bilmir... Elə isə görək DAO-nun varlığı barədə çinlilərin özləri nə deyir?

"...Sözlə ifadə olunan DAO - əbədi dao deyil. Çünki həmişə dildə gəzən Ad - həmişəlik ola bilməz. Adı-sanı olmayan yalnız Yerlə-Göydür, Adı olan nə varsa, - hər şeyin anasıdır. Hirs və hikkədən xali olanlar DAO-nun qəribə möcüzəsini görür, əsib-coşanlarsa onun yalnız şəklini təsəvvürə gətirir. Bir olanda ikisi də dərindir. Dərin olan birisindən o birisinə keçid - əslində möcüzəyə açılan qapıdır...